# Azərbaycanın qeyri-neft sektorunda artım daha dinamik şəkil aldı...

**Ölkədə həyata keçirilən kadr və struktur islahatları, faktiki olaraq, Azərbaycanın iqtisadi tərəqqisində artıq yeni bir mərhələnin açılması ilə müşayiət olunmaqdadır. Belə vəziyyətdə diqqət çəkən əsas məqamlardan biri qeyri-neft sektorunda dinamik artımın qeydə alınmasıdır.**

Təhlillər göstərir ki, artıq bu gedişlə Azərbaycanın enerji resurslarından və onların dünya bazarlarında tez-tez dəyişən qiymətlərindən asılılığı tam aradan qalxacaq.

Bütün bunların kökündə dayanan başlıca faktor isə məhz reallaşdırılan islahatlardır. Xatırladaq ki, hələ 2015-ci ildən başlayaraq ölkə məhz bu islahatlarla yeni inkişaf mərhələsinə qədəm qoyub. İndi Azərbaycanda artıq post-neft dövrünün iqtisadiyyatının qurulması müşahidə olunur. İqtisadi şaxələndirilmə, idarəetmədə şəffaflığın yüksəldilməsi, ictimai nəzarətin gücləndirilməsi, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması, məmur özbaşınalığına son qoyulması qeyd edilənlərin real təzahürləri sayılır. İnstitusional islahatların dərinləşdirilməsi, dövlət idarəetmə strukturlarının təkmilləşdirilməsi də bu istiqamətdə mühüm addımlardır. Həmçinin əhalinin rifah səviyyəsinin yüksəldilməsi istiqamətində sosial islahatlar paketi reallaşdırılır, sistemli struktur və kadr islahatları həyata keçirilir, gənc kadrlara, savadlı mütəxəssislərə geniş meydan verilir. Bunlar isə nəticə etibarı ilə ümumi inkişafa müsbət təsir edir. Elə bütün bunların nəticəsidir ki, artıq qeyri-neft sektoru iqtisadiyyatda xüsusi çəkisini artırır. Gələn il gəlirlərin formalaşmasında, ümumi iqtisadi inkişafda qeyri-neft seketorunun payının daha da artması bu mənada qaçılmaz sayılır. İqtisadiyyat naziri Mikayıl Cabbarov da təsdiq edir ki, gələn il neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorunda da əhəmiyyətli artım gözlənilir. Həyata keçirilən kompleks tədbirlər nəticəsində 2020-ci ildə qeyri-neft sahəsində 8,8 faiz artım proqnozlaşdırılır.



Nazir bildirib ki, növbəti ildə qeyd olunan proqnozların reallaşdırılması üçün biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması və digər addımların davam etdirilməsi önəmlidir.

Maliyyə naziri Samir Şərifov da bildirir ki, 2020-ci ilin dövlət büdcəsini səciyyələndirən əsas amillərdən biri qeyri-neft sektorunun inkiaşfı ilə bağlıdır. Nazir qeyd edib ki, 2020-ci ildə dövlət büdcəsinin 43,9 faizi qeyri-neft, 56,1 faizi isə neft gəlirlərinin payına düşəcək. Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bu fonda qeyd edir ki, artıq cari ildə dövlət büdcəsinin qeyri-neft gəlirləri əhəmiyyətli dərəcədə artıb. O həm də vurğulayır ki, 2020-ci ilin dövlət büdcəsi müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın proqnozlaşdırılan ən böyük büdcəsidir. Yuxarıda qeyd olunduğu kimi isə, gələn il artıq bu büdcənin az qala yarısı məhz qeyri-neft sektrru hesabına formalaşacaq. Ekspertlər də qeyd edir ki, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, vergi uçotunun bərpası və biznesin öz dövriyyələrini leqallaşdırması istiqamətində əldə olunmuş nailiyyətlər bu nəticələri yaradır. Belə vəziyyət həm də qeyri-neft sektoru üzrə ixrac və valyuta daxilolmalarının miqdarını artırır.

Qeyd edək ki, bu ilin ilk üç rübündə qeyri-neft sektoru üzrə 1 milyard 413 milyon dollar dəyərində ixrac reallaşdırılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 9 ayında qeyri-neft sektoru üzrə ixracın dəyəri 206 milyon dollar və ya 17 faiz artıb. Bu ilin yanvar-sentyabr aylarında Azərbaycan qeyri-neft məhsullarını əsas etibarı ilə Rusiyaya, Türkiyəyə, İsveçrəyə, Gürcüstana, İtaliyaya, ərəb ölkələrinə göndərib. İlin sonuna kimi qeyri-neft ixracının 2 milyard dolları ötməsi, gələn il isə bu rəqəmin azı 2,5 milyard dollara çatması gözlənir. Bu isə qeyri-neft sektoru üzrə valyuta gəlirlərini də artırır. Bu məsələdə turizm sektoru da öz sözünü deyir.

Məlumat üçün bildirək ki, cari il yanvar-sentyabr aylarında Azərbaycana 191 ölkədən 2,4 milyon və ya ötən ilin eyni ayları ilə müqayisədə 9,5 faiz çox əcnəbi gəlib. Bu ilin sonuna kimi turistlərin sayının 3 milyonu keçməsi gözlənir. Onların xərclədikləri vəsaitin miqdarının 2,5 milyard dollar olması da proqnozlaşdırılır. Bütün bunlar təsdiq edir ki, Azərbaycan iqtisadi artım tempini daha çox qeyri-neft sektorunda formalaşdırır. Ekspertlərə görə, bu da məhz iqtisadi inkişafın və iqtisadiyyatda əldə edilən artımın mərhələli şəkildə neft sektorunun qeyri-neft sektoruna transfer olması mənasına gəlir. Yəni qeyri-neft sektoru əldə edilən iqtisadi artıma dominant olaraq təsir göstərir. Bütün bunlar, qeyd olunduğu kimi, 2015-ci ildən sonra keçirilən islahatlar nəticəsində iqtisadiyyatın mərhələli şəkildə şaxələnməsinin nəticəsidir.

**Digər sektorlarda - aqrar, turizm, xidmət sektorlarında artım tempinin proqnozlaşdırıldığından daha çox olması iqtisadi nəticələrin bundan sonra daha yüksək olacağını deməyə əsas verir. Həm də bu islahatlardan irəli gəlir ki, Dünya Bankı Azərbaycanı 20 ən çox islahat aparan ölkə siyahısına daxil edib. Dünya İqtisadi Forumunun son hesabatında Azərbaycan öz mövqeyini 11 pillə möhkəmləndirə bilib. "Fitch" və "Moody`s" agentliklərinin hesabatlarında da Azərbaycan stabil mövqeyini qoruyub saxlayıb. Bunlar o deməkdir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatlar ölkəmizin beynəlxalq hesabatlardakı mövqeyinə müsbət təsir göstərir. Ekspertlər qeyd edir ki, gələn ildə də ölkədə daha dərinləşmiş iqtisadi və sosial islahatları müşahidə etmək mümkün olacaq. Bu isə iqtisadi inkişafda daha böyük nailiyyətlərin əldə olunması deməkdir.**

***Tahir TAĞIYEV***